**POLAD XƏLILOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu "Azərbaycanın yeni tarixi" şöbəsinin kiçik elmi işçisi*

# 1900-1905-CI ILLƏRDƏ "BAKI NEFT SƏNAYEÇILƏRI QURULTAYI"NIN MƏDƏNI-MAARIF SAHƏSINDƏ FƏALIYYƏTINƏ DAIR

XIX əsrin sonlarında Bakı şəhərində yaranmış "Bakı neft sənayeçiləri qurultayı"təşkilatının çoxşaxəli fəaliyyəti dairəsində mədəni – maarif sahəsində gördüyü işlərin tədqiq olunması mühüm əhəmiyyət kəsb edir. Həmin mövzunun araşdırılması çar Rusiyasının digər sahələrdə olduğu kimi, mədəni-maarif sahəsində də azərbaycanlılara qarşı yürütdüyü müstəmləkəçilik siyasətinin təzahürlərini işıqlandırmaq baxımından aktualdır.

Tədqiq olunan mövzuya dair indiyə qədər nə sovet tarixşünaslığında, nə də müasir dövr tarixşünaslığında heç bir xüsusi tədqiqat əsəri yazılmamışdır. Lakin bir sıra müəlliflər vardır ki, onlar öz əsərlərində (2;7;8) həmin mövzuya bir qədər geniş yer ayıraraq, qurultayın mədəni-maarif sahəsində apardığı fəaliyyətinin bəzi istiqamətləri barədə məlumat veriblər.

Neft sənayeçiləri qurultayının yuxarıda göstərilən fəaliyyət növünün təhlilinə keçməzdən əvvəl həmin dövrdə Bakı neft sənayesi rayonunda cərəyan edən təhsilin ümumi vəziyyəti barədə məlumatlarla oxucuları tanış etmək istərdik.

Əvvəlki illərdə olduğu kimi, XX əsrin əvvəllərində də çar Rusiyası təhsili başlıca olaraq rus dilində aparmaqla digər millətlərin, o cümlədən azərbaycanlıların da təhsil və mədəniyyətinə ciddi zərbə vururdu. Çarizmin bu siyasəti təkcə məktəblərlə məhdudlaşmır, mədəniyyət sahəsində də özünü göstərirdi.

Tədqiq olunan dövrdə Bakı neft rayonunda fəhlə əhalisinin böyük əksəriyyəti savadsız idi. Bir qədər irəli gedərək qeyd edək ki, 1903-cü ilin sonuna olan məlumatlara görə, Bakı şəhəri fəhlələri arasında orta savadlılıq 35% təşkil edir, müsəlman fəhlələri arasında isə heç 8%-i də keçmirdi (8, s.63).

XIX əsrin sonlarında neft sənayeçiləri qurultayının mədəni-maarif sahəsində apardığı ilkin tədbirləri XX əsrin əvvəllərində daha geniş vüsət alaraq, mədən və zavod rayonları fəhlələrinin təhsilə, mədəni tədbirlərə olan tələbatını daha çox ödəyirdi.

1900/01-ci tədris ilində neft sənayeçiləri qurultayının 5 məktəbi (Sabunçu, Bibiheybət, Qaraşəhər, Ağşəhər və Ramana) fəaliyyət göstərirdi ki, həmin məktəblərdə də təhsil alan şagirdlərin sayı 500 nəfər idi (1, s.87).

Şagirdlərin milli tərkibinə gəldikdə, onların təxminən 70%-ni ruslar, 18-20%-ni ermənilər, 10-12%-ni isə azərbaycanlılar da daxil olmaqla digər millətlər təşkil edirdi (2, s.54-55).

Qurultayın yuxarıda qeyd olunan 5 məktəbindən əlavə 1901-ci ildə daha 2 məktəbi-II Qaraşəhər və Balaxanı məktəbləri açıldı. Ümumiyyətlə, 1901-ci il yeni məktəblərin açılması və köhnə məktəblərin genişləndirilməsi işi ilə əlamətdar oldu (1, s.5).

Həmin ildə qurultayın 1897-ci ildə açılmış Sabunçu məktəbi IV bölmənin açılması ilə əlaqədar olaraq, daha da genişləndirildi. Ramana məktəbi isə 1899-cu ilin əvvəlində açılmasına baxmayaraq, artıq 1901-ci ildə orada III bölmənin fəaliyyət göstərməsi ilə bağlı olaraq (1, s.5) Bakı quberniyası və Dağıstan vilayəti üzrə xalq məktəbləri direktorunun razılığı ilə həmin bölmə üçün günortadan sonra 1 saatdan 4 saata qədər davam edən məşğələlər tətbiq olundu. 1901-ci ildə qurultayın bütün 7 məktəbində təhsil alan şagirdlərin sayı 757 nəfərə çatdı ki, bu da 1900-cü ilə nisbətən 50%-dən çox artım de-

mək idi. Həmin ildə şagirdləri məktəbə götürməkdən imtina etmələrin sayı 60 nəfərə qədər çatdı. Bu qayda firmalarda qulluq edib, neft sənayeçilərinin ümumi fonduna daxil olan vergiləri ödəməyən şəxslərin uşaqlarına şamil olunurdu (1, s.6).

1902-ci ildə Ramana məktəbinə II paralel bölmənin əlavə olunması nəticəsində II Ramana məktəbi açıldı. Həmin məktəbin açılmasına gətirib cıxaran səbəb o idi ki, 100 nəfər şagirdin məktəbə qəbul olunması zamanı I Ramana məktəbində yer məhdud sayda idi. Bu tip bölmələr Ağşəhər, Bibiheybət və II Qaraşəhər məktəblərində də açıldı (3, s.85). Həmin tədbir bütün şagirdlərin məktəbə qəbul olunmasına şərait yaradır, hətta I bölmənin əhəmiyyətli dərəcədə seyrəkləşdirilməsinə də gətirib çıxarırdı (1, s.6).

Həmin ildə qurultayın təhsil sahəsində apardığı fəaliyyətində daha bir əlamətdar hadisə 1897-ci ildə açılmış birsinifli ibtidai Sabunçu məktəbinin ikisinifli məktəbə çevrilməsi oldu (3, s.85). Qeyd edək ki, bu işin layihələşdirilməsinə hələ 1901-ci ildən başlanılsa da, onun tam surətdə həyata keçirilməsi xalq məktəbləri direktorunun razılığından sonra, Sabunçu məktəbində 9 nəfər şagirddən ibarət olan V bölmənin açılması prosesi ilə baş verdi. Bu tədbir şagirdlərə daha geniş və mükəmməl təhsil verilməsi baxımından böyük əhəmiyyətə malik idi (1, s.6).

Artıq 1903-cü ilin yanvar ayının 1-nə olan tarixdə qurultay məktəblərində təhsil alan şagirdlərin sayı 986 nəfərə çatmışdı. Onların 571 nəfərini oğlanlar, 415 nəfərini isə qızlar təşkil edirdi. Həmin şagirdlər milli tərkibinə görə məktəblər üzrə aşağıdakı kimi bölünmüşdür (3, s.87-88):

| Məktəblər | Ruslar | Azərbaycanlılar | Gürcülür | Dağlılar | Yəhudilər | Ermənilər | Digər millətlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| Sabunçu | 128 | - | - | 3 | - | 20 | 9 | 160 |
| Ağşəhər | 93 | - | - | - | - | 18 | 7 | 118 |
| I Qaraşəhər | 72 | - | 1 | - | - | 32 | 16 | 121 |
| II Qaraşəhər | 66 | - | 1 | - | - | 22 | 1 | 90 |
| I Ramana | 135 | - | 1 | 1 | - | 28 | 10 | 175 |
| II Ramana | 66 | - | - | - | - | 24 | 10 | 100 |
| Balaxanı | 64 | 2 | - | - | 4 | 11 | 11 | 92 |
| Bibiheybət | 104 | 1 | - | - | - | 10 | 15 | 130 |
| Cəmi | 728 | 3 | 3 | 4 | 4 | 165 | 79 | 986 |

1903-cü ilin yanvar ayının 1-nə nisbətən həmin ilin may ayının 1-də şagirdlərin sayı 10,3% aşağı düşmüşdür. Bunun da əsas səbəbi əvvəlki illərdə olduğu kimi, həmin ildə də yaz naviqasiya dövrünün (gəmilərin səfərdə olduğu dövr) başlanması ilə əlaqədar olaraq, Rusiyaya yola düşənlərin kütləvi hal alması olmuşdur (4, s.104).

Şagirdlərin hansı təbəqəyə məxsus olmasına gəldikdə isə, onların 71%-ni kəndli, kazak və əsgər uşaqları, 27%-ni şəhər təbəqəsinin uşaqları, 2%-ni isə zadəganların, ruhanilərin və xaricilərin uşaqları təşkil edirdi (9, s.81).

1903-cü ildə "Bibiheybət neft cəmiyyəti"nin binasında yerləşən Bibiheybət məktəbinin ibtidai bölməsi III bölmə ilə birlikdə Bayıla köçdü və bununla da Bayıl məktəbinin açılması baş verdi (4, s.116).

Qeyd edək ki, XX əsrin əvvəllərində qurultay məktəblərində təhsil sisteminin dəyişdirilməsi istiqamətində bir sıra səylər göstərilmişdir.

Tədris – tərbiyə işində sinifdənxaric mütaliəyə böyük diqqət yetirən qurultay məktəblərinin pedaqoji heyəti bütün məktəblərdə uşaq kitabxanalarının tam və mütəşəkkil surətdə təşkil olunmasına xüsusi nəzarət yetirirdi. Qurultay məktəbləri müəllimlərinin 1903-cü ildə keçirilən ümumi yığıncağında xüsusi kitabxana komissiyası seçildi. Həmin komissiyaya uşaq mütaliəsi üçün kitabların ətraflı siyahısını tərtib etmək vəzifəsi həvalə

olundu. 1903-cü ildə işlənib hazırlanmış siyahılar əsasında müəllimlərin ümumi yığıncağının qərarı ilə qurultay məktəblərinin mövcud olduğu zamanından ilk dəfə olaraq bütün məktəblərə 1500 rubl dəyərində kitablar köçürüldü (1, s.68).

1904-cü ilin yanvar ayının 1-nə olan tarixdə qurultay məktəblərində təhsil alan şagirdlərin sayı 1331 nəfər idi. Həmin şagirdlər milli tərkibinə görə məktəblər üzrə aşağıdakı kimi bölünmüşdür (4, s.117-118):

| Məktəblər | Ruslar | Azərbaycanlılar | Gürcülər | Dağlılar | Yəhudilər | Ermənilər | Digər millət-lər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| I Qaraşəhər | 62 | - | 2 | - | - | 26 | - | 90 |
| II Qaraşəhər | 93 | - | 1 | - | 2 | 23 | - | 119 |
| I və II Ramana | 217 | 10 | - | 3 | 2 | 54 | 40 | 326 |
| Ağşəhər | 108 | - | - | - | - | 26 | 9 | 143 |
| Sabunçu | 207 | 6 | - | 4 | 9 | 47 | 13 | 286 |
| Balaxanı | 131 | 12 | - | 1 | 6 | 47 | 17 | 214 |
| Bibiheybət | 71 | 2 | - | - | - | 7 | 8 | 88 |
| Bayıl | 49 | - | - | - | - | 7 | 9 | 65 |
| Cəmi | 938 | 30 | 3 | 8 | 19 | 237 | 96 | 1331 |

Qurultay Şurası ibtidai məktəblərin aşıladığı adi ibtidai təhsillə kifayətlənməyərək, böyüklər üçün nəzərdə tutulan müntəzəm axşam kurslarının da açılmasına nail olmuşdur (4, s.138). Bu tip kurslar XIX əsrin sonlarından tətbiq olunaraq, XX əsrin əvvəllərində öz fəaliyyətini daha da genişləndirmişdir.

1902-ci ildə I və II Ramana məktəbləri nəzdində axşam kursları fəaliyyət göstərirdi. Həmin kurslarda böyüklər üçün rus dilindən, hesab qaydalarından, yazı işindən və texniki rəsm-xəttdən dərslər keçirilirdi. Rəsm-xətt dərsinə usta və sənətkarların daha çox gəlməsi müşahidə olunurdu (3, s.95). Qurultay Şurası bu yöndə öz fəaliyyətini davam etdirərək, 1903-cü ilin sonunda Sabunçu, I və II Ramana, Balaxanı və I Qaraşəhər məktəblərində də müntəzəm axşam kurslarını təşkil etdi (4, s.138).

1903-cü il ərzində Sabunçu, I və II Ramana, habelə Balaxanı məktəblərində axşam kurslarına gələn şagirdlərin sayı 454 nəfər olmuşdur. Həmin şagirdlər milli tərkibinə görə aşağıdakı kimi bölünmüşdür (4, s.141):

| Məktəblər | Ruslar | Azərbaycanlılar | Almanlar | Yəhudilər | Gürcülər | Polyaklar | Latışlar | Ermənilər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| Sabunçu | 62 | 34 | 6 | 8 | 15 | - | 2 | 32 | 159 |
| I və II Ramana | 90 | 45 | 12 | 4 | - | 2 | - | 47 | 200 |
| Balaxanı | 52 | 12 | 4 | 6 | - | - | - | 21 | 95 |
| Cəmi | 204 | 91 | 22 | 18 | 15 | 2 | 2 | 100 | 454 |

Yuxarıda göstərilən 454 nəfərin hansı təbəqəyə mənsub olmasına gəldikdə isə bu barədə məlumatlar yalnız Sabunçu məktəbinə aid olduğuna görə, onu qeyd edə bilərik ki, həmin məktəbin axşam kurslarına gələn 159 nəfər şagirddən 118 nəfərini kəndli uşaqları, 36 nəfərini meşşan uşaqları, 5 nəfərini isə zadəgan uşaqları təşkil edirdi (4, s.141).

Qurultay Şurası təhsil sahəsində öz fəaliyyətini daha da genişləndirərək, 1903/04-cü tədris ili ərzində I və II Ramana məktəbləri nəzdində bazar günləri fəaliyyət göstərən qadın məktəbi, Sabunçu məktəbi nəzdində isə qadınlar üçün günortadan sonrakı kursları təşkil etdi (10, s.78).

1900-cü ildən 1903-cü ilədək olan müddət ərzində qurultay məktəblərində təhsil alan oğlanların sayı 1,9% azaldığı halda, qızların sayı elə həmin qədər də artmışdır. Bu onunla əlaqədar idi ki, həmin illər ərzində xalq kütlələrinin mədəni səviyyəsi tədricən artmış, əvvəllər lüzumsuz hesab olunan qadın təhsilinin vacib amil olması artıq öz təsdiqini tapmışdır (4, s.129).

1903-cü ildə qurultay məktəblərində müəllim heyətinin sayı 1901-ci ilə nisbətən 26 nəfər, 1902-ci ilə nisbətən isə 13 nəfər artaraq 45 nəfərdən ibarət olmuşdur (4, s.136).

1904-cü ildə qurultayın təhsil işi üzrə apardığı fəaliyyətinin daha bir əlamətdar hadisəsi Zabrat məktəbinin açılması olmuşdur (5, s.85). Həmin məktəb 3 ayrı-ayı binalarda fəaliyyət göstərən Ramana məktəbinin işini yüngülləşdirmək məqsədilə açılmışdır (1, s.7).

1904/05-ci tədris ili ərzində qurultay məktəblərində təhsil alan şagirdlərin 9,92%-i müdirlərin, texniklərin, kontorçuların və prikazçiklərin uşaqlarına, 70,43%-i fabrik-zavod fəhlələrinin, mədən fəhlələrinin və qara fəhlələrin uşaqlarına, 3,47%-i tacir uşaqlarına, 16,18%-i isə digər peşələrə mənsub olanların uşaqlarına mənsub olmuşdur (1, s.96).

Qurultay məktəblərində təhsil alan şagirdlərdən fabrik-zavod fəhlələrinin, mədən fəhlələrinin və qara fəhlələrin uşaqlarının üstünlük təşkil etməsi bir tərəfdən qurultayın həmin təbəqədən mənsub olanlara bir çox güzəştlərin şamil olunmasıyla, digər tərəfdən isə başqa təbəqədən olan uşaqların qurultay məktəblərindən başqa digər məktəblərdə də təhsil alması ilə əlaqələndirilir.

1905-ci ilin yanvar ayının 1-nə olan tarixdə qurultay məktəblərində təhsil alan şagirdlərin sayı 1613 nəfər idi. Həmin şagirdlər milli tərkib üzrə aşağıdakı kimi bölünmüşdür (5, s.94-95):

| Məktəblər | Ruslar | Azərbaycanlılar | Gürcülər | Dağlılar | Yəhudilər | Ermənilər | Digər millətlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| I Qaraşəhər | 127 | - | - | - | 1 | 26 | - | 154 |
| II Qaraşəhər | 96 | - | - | 1 | 1 | 15 | 6 | 119 |
| Ağşəhər | 133 | 1 | - | - | - | 24 | 9 | 167 |
| I və II Ramana | 207 | 11 | 2 | 3 | 4 | 35 | 47 | 309 |
| Sabunçu | 249 | 4 | - | 3 | 9 | 44 | 20 | 329 |
| Balaxanı | 129 | 18 | - | - | 7 | 46 | 13 | 213 |
| Bibiheybət | 41 | 1 | - | - | - | 5 | 5 | 52 |
| Bayıl | 118 | 3 | - | 2 | - | 8 | 1 | 132 |
| Zabrat | 54 | 7 | - | - | - | 69 | 8 | 138 |
| Cəmi | 1154 | 45 | 2 | 9 | 22 | 272 | 109 | 1613 |

1905-ci ilin yanvar ayının 1-nə olan tarixdə qurultay məktəblərində təhsil alan şagirdlər təbəqə üzrə aşağıdakı kimi bölünmüşdür (5, s.110):

| Məktəblər | Məmur və zadəganlar | Fəxri vətəndaşlar | Ruhanilər | Tacirlər | Meşşanlar | Kəndli və əsgərlər | Xaricilər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| I Qaraşəhər | 1 | 1 | 2 | - | 18 | 132 | - | 154 |
| II Qaraşəhər | 3 | - | 1 | - | 9 | 106 | - | 119 |
| Ağşəhər | 2 | - | - | 8 | 16 | 141 | - | 167 |
| I və II Ramana | - | - | - | - | - | 254 | 55 | 309 |
| Sabunçu | 4 | 3 | 1 | 1 | 54 | 266 | - | 329 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Balaxanı | - | - | - | 16 | 49 | 148 | - | 213 |
| Bibiheybət və Bayıl | - | - | - | - | - | 179 | 5 | 184 |
| Zabrat | 2 | - | 1 | 16 | 6 | 111 | 2 | 138 |
| Cəmi | 12 | 4 | 5 | 41 | 152 | 1.337 | 62 | 1613 |
| % nisbəti | 0,75% | 0,25% | 0,31% | 2,54% | 9,42% | 82,89% | 3,84% | # |

Yuxarıdakı cədvəldən aydın olur ki, ən çox faiz nisbəti qara fəhlələrin və sənətkarların uşaqlarının payına düşür ki, onlar da təbəqə üzrə mövsümlə əlaqədar olaraq, yaz aylarında hələ də torpaqlarda işləyən keçmiş kəndlilərə və əsgərlərə mənsub idi (5, s.112).

1904/05-ci tədris ilinin başlanğıcında qurultay məktəblərində müəllim heyətinin sayı əvvəlki illərə nisbətən bir qədər də artaraq 54 nəfərdən ibarət olmuşdur (5, s.117).

Qeyd edək ki, 1905-ci ildə erməni-müsəlman toqquşmalarının törətdiyi fəsadlar qurultay məktəblərindən də yan keçmədi. 1905-ci ilin fevral ayında başlanan qırğınlar avqust ayında daha da geniş vüsət aldı. Bunun nəticəsində I və II Ramana məktəbləri məhv olana qədər yandı, Balaxanı və Zabrat məktəbləri isə dağıdıldı (9, s.109). 1905-ci ilin noyabr ayında mədən həyatının nisbətən əvvəlki sakitliyə qayıtması ilə Sabunçu məktəbi öz fəaliyyətinə başladı. Balaxanı, Zabrat, I və II Ramana məktəblərini isə açmaq mümkün olmadı. Beləliklə, 1905-06-cı tədris ilində Balaxanı-Sabunçu-Ramana mədən rayonunda yalnız Sabunçu məktəbi fəaliyyət göstərə bildi.

Digər rayonlara gəldikdə isə, Bibiheybət məktəbi şagirdlərin olmamasına görə bağlandı, II Qaraşəhər məktəbi isə I Qaraşəhər məktəbinə köçürülərək onunla birləşdirildi (6,s.110).

Bayıl və Ağşəhər məktəblərindən danşıarkən, qeyd edək ki, Ağşəhər məktəbi 1905/06-cı tədris ilinin əvvəlindən fəaliyyətdə olmuşdur. Bu da onunla əlaqədar idi ki, 1905-ci ilin erməni-müsəlman toqquşmaları mədən rayonlarında öz əksini tapsa da, Ağşəhər zavod rayonunda əks-səda doğurmamışdır. Bayıl məktəbi isə yeni binaya köçürülərək daha da genişləndirilmişdir (6, s.110).

Beləliklə, 1905-ci ilin noyabr ayına olan tarixdə qurultayın fəaliyyət göstərən 4 məktəbində (Bayıl, Ağşəhər, Sabunçu, Qaraşəhər) təhsil alan şagirdlərin sayı 1054 nəfər olmuşdur ki, onların da 651 nəfərini oğlanlar, 403 nəfərini isə qızlar təşkil edirdi. O zaman Bakıda baş verən məlum hadisələrlə əlaqədar olaraq, 1905/06-cı tədris ili bir qədər gec, 1905-ci ilin noyabr ayında başlamışdır.

Şagirdlərin milli tərkibinə gəldikdə, onların 87,5%-ni ruslar, 0,8%-ni azərbaycanlılar, 0,3%-ni gürcülər, 0,3%-ni dağlılar, 0,8%-ni yəhudilər, 6%-ni ermənilər, 4,3%-ni isə digər millətlərə mənsub olanlar təşkil edirdi.

Əvvəlki illərlə müqayisə etdikdə, biz azərbaycanlı və erməni şagirdlərinin yüksək sürətlə azalmasını görürük. Bu proses azərbaycanlı şagirdləri arasında 3%-ə qədər, erməni şagirdləri arasında isə 12,1%-ə qədər müşahidə olunmuşdur. Bunun müqabilində rus şagirdlərinin sayı 17,5%-ə qədər artmışdır. Digər millətlərə gəldikdə isə onlar arasındakı fərq az dəyişikliyə məruz qalmışdır (6, s.93).

1900-1905-ci illər ərzində qurultayın təhsil sahəsində apardığı iş təqdirəlayiq hal kimi qiymətləndirilsə də, bəzi mənfi halların müşahidə olunması səbəbindən həmin təşkilatın bu sahədəki fəaliyyəti tam qənaətbəxş olmamışdır. Gənc və təcrübəsiz şagirdlərin yüksək faiz təşkil etməsi, müəllimlərin dəvət olunmasında düzgün olmayan sistem, siniflərin həddindən artıq yüklənməsi, daimi ehtiyatda olan müəllimlərin olmaması həmin mənfi xüsusiyyətlərin yaranmasına gətirib çıxarırdı (10, s.89).

Əgər XIX əsrin sonlarında neft sənayeçiləri qurultayı xalq evlərinin, xalq əyləncələrinin, xalq kitabxana-qiraətxanalarının və digər mədəni-maarif tədbirlərinin təşkil

olunması sahəsində hələ təzə-təzə təşəbbüs göstərməyə başlayırdısa, artıq XX əsrin əvvəllərində bu proses daha geniş əraziləri əhatə edərək, qurultay fəaliyyətinin diqqət mərkəzində dururdu.

Rusiya Texniki Cəmiyyəti Bakı şöbəsinin və neft sənayeçiləri qurultayının vəsaiti hesabına fəaliyyət göstərən Qaraşəhər pulsuz kitabxana-qiraətxanasının kataloquna yalnız rus dilində nəşr olunan kitablar daxil edildiyinə görə, azərbaycanlı fəhlələr həmin kitabxana-qiraətxanadan istifadə edə bilmirdilər (7, s.58). Çarizmin ruslaşdırma siyasəti kitabxana sahəsində də öz əksini taparaq, yalnız rusların mənafeyinə xidmət edirdi.

Qaraşəhər kitabxana-qiraətxanası Ağşəhərdə, Bayılda və Balaxanıda öz filiallarını açmağa müvəffəq olmuşdur (7, s.59). Həmin filiallar da sonradan neft sənayeçiləri qurultayının sərəncamına keçirilərək, müstəqil kitabxana-qiraətxanalara çevrilmişdir (7, s.60).

H.Tağıyev öz əsərində arxiv materiallarına əsaslanaraq, Bibiheybət kitabxanasının təsis olunmasını 1900-cü ilin əvvəllərinə aid edir (7, s.68).

Bakı neft sənayeçilərinin XVI qurultayının (1902) qərarına müvafiq olaraq qurultay şurası 1902-ci ildə "Bakı rayonunun fəhlə və qulluqçuları üçün xalq evlərinin və xalq əyləncələrinin təşkil olunması üzrə komitə"ni təşkil etdi. Komitənin həmin ildə keçirilən I iclasında Qaraşəhər və Balaxanı komitələri təşkil olundu ki, onlar da bilavasitə olaraq baş komitəyə tabe oldular. Baş komitə isə xalq əyləncələrinin təşkil olunmasına dair məsələlərin işlənib hazırlanması ilə məşğul olmalı idi. Komitənin fəaliyyətində əsas tədbirlər tamaşaların, ədəbi-musiqili dərnəklərin və xüsusi ədəbi qiraətlərin keçirilməsindən ibarət idi (9, s.389).

Bütün nəzərdə tutulan əyləncələr qurultayın Qaraşəhərdəki xalq auditoriyasında və Balaxanıdakı Xeyriyyə Cəmiyyətinin binasında keçirilirdi. Bəzi günlərdə tədbirlərə gələn tamaşaçıların sayı o qədər çox olurdu ki, həmin tamaşaçılardan imtina etmə halları 40-50%-ə qədər gəlib çatırdı.

1902-ci ildə Qaraşəhərdə 40 tamaşa təşkil olundu. Tamaşalar Bakıda xalq əyləncələri Cəmiyyətinin əməkdaşlığı ilə təşkil olunurdu ki, Qaraşəhər komitəsi də həmin cəmiyyət ilə bu məsələ barədə razılığa gəlmişdi. Həm sərbəst, həm də tamaşalarla keçirilən musiqi hissələri məşhur Bakı musiqiçilərinin iştirakı ilə oynanılırdı. 1902-ci ildə 3 ədəbi tədbir - kimya, tibb və ədəbiyyat dərnəkləri keçirildi. Yuxarıda göstərilən tədbirlərin hamısına 9.236 nəfər tamaşaçı baş çəkmişdi.

1902-ci ildə Balaxanıda 20 tamaşa təşkil olundu ki, həmin tamaşalara da gələnlərin sayı 3.420 nəfər oldu. Həmin tamaşalara baş çəkənlərin əksəriyyəti demək olar ki, fabrik-zavod və mədən fəhlələrindən ibarət idi (9, s.390).

Balaxanıda xalq əyləncələrinin məhdud sayda təşkil olunması onunla əlaqədar idi ki, komitənin fəaliyyəti üçün istifadəyə verilmiş Xeyriyyə Cəmiyyətinin binası yararsız və əlverişsiz vəziyyətdə idi (9, s.391).

1903-cü ildə xalq əyləncələrinin təşkil olunması üzrə komitə fabrik-zavod fəhlələrini də öz mədəni tədbirlərdə iştirak etməyə cəlb edirdi. Həmin fəhlələrdən təşkil olunan 25 nəfərlik musiqi qrupu fəaliyyətə başladı. Elə həmin il həvəskar və xüsusi fəhlə tamaşalarının oynanılması ilə xalq tamaşalarının təşkil olunmasının əsası qoyuldu. 1903-cü ilin mart ayından iyun ayına qədər komitə müxtəlif məzmunlarda 11 əyləncəvi tamaşalar nümayiş etdirdi (10, s.139).

Bakıda baş verən erməni-müsəlman toqquşmaları mədəniyyət sahəsinə də təsirsiz ötüşmədi. Artıq 1905-ci il ərzində komitənin fəaliyyətində geriləmə müşahidə olunmağa başladı. Fəhlələrdən ibarət olan musiqi qrupu çıxış etmir, onların iştirakı ilə tamaşalar

oynanılmır, iyun ayından etibarən isə, həmin musiqi qrupunun fəaliyyəti tamamilə dayandırıldı (10, s.140).

1905-ci ilin noyabr ayında komitənin Balaxanı bölməsi özünün kitabxana-qiraətxanasını təşkil etməklə bərabər, həmin aydan etibarən həftədə 4 dəfə keçirilən teatr tamaşalarını təşkil edirdi (10, s.141).

Mədəniyyətin digər sahələrində olduğu kimi, xalq əyləncələrinin təşkil olunması sahəsində də bütün tədbirlər rus dilində keçirilirdi. Bu proses azərbaycanlı fəhlələrin həmin tədbirlərə baş çəkməsinə maneçilik törədirdi. Çarizmin tətbiq etdiyi ruslaşdırma siyasəti qurultayın keçirdiyi ən kiçik tədbirlərə belə sirayət edirdi. Rus tamaşaları ilə yanaşı olaraq, erməni tamaşalarının da səhnəyə qoyulması, rusların ermənilərə olan havadarlığının digər bir nümunəsi idi.

Yuxarıda göstərilən tədbirlərdən başqa neft sənayeçiləri qurultayının məktəblərində ədəbi-musiqili dərnəklər təşkil olunurdu. Həmin tədbirlərdə qurultay məktəblərinin şagirdlərindən əlavə olaraq mədən rayonunda yerləşən digər məktəblərin də şagirdləri iştirak edirdi. Bu tip tədbirlər 1902-ci ilin dekabr ayının son günlərində Balaxanı-Sabunçu mədən rayonunun bütün məktəblərində təşkil olunmuşdu.

1902-ci ilin may ayında Qaraşəhər xalq auditoriyasında da ədəbi-musiqili dərnək təşkil olundu. Bu tədbirdə qurultayın zavod rayonunda yerləşən hər 3 məktəbinin (I və II Qaraşəhər, Ağşəhər) şagirdləri iştirak etdi (3, s.93).

Yuxarıdakı məlumatlara əsasən belə bir qənaətə gəlmək olar ki, neft sənayeçiləri qurultayının mədəni-maarif sahəsində apardığı fəaliyyəti əslində çarizmin müstəmləkəçilik siyasətinə xidmət etmişdir. Mədəni-maarif tədbirlərinin başlıca olaraq rus dilində keçirilməsi səbəbindən azərbaycanlılar öz milli-mədəni irslərini nümayiş etdirə bilmirdilər.

Lakin buna baxmayaraq, 1900-1905-ci illər ərzində "Bakı neft sənayeçiləri qurultayı"nın mədəni-maarif sahəsində gördüyü işlər daha geniş əraziləri əhatə edərək, mədən-zavod rayonlarındakı təhsilin və mədəniyyətin ümumi səviyyəsinin qalxmasına təkan verdi. Əgər 1900-cü ildə qurultayın cəmi 5 məktəbi fəaliyyət göstərirdisə, artıq 1905-ci ilə qədər həmin təşkilat əlavə 5 məktəbin də açılmasına nail oldu və bununla da məktəblərin sayı 10-a qədər gəlib çatdı.

Yuxarıda qeyd olunduğu kimi, 1905-ci ildə baş verən erməni-müsəlman toqquşmaları qurultayın mədəni-maarif sahəsindəki fəaliyyətini müvəqqəti olaraq ləngitmiş, bəzi məktəblər bağlanmış, mədəni tədbirlərin keçirilməsində azalma müşahidə olunmuşdur.

Yuxarıda göstərilən bəzi çatışmazlıqlara baxmayaraq, tədqiq olunan dövrdə qurultayın mədəni-maarif sahəsindəki fəaliyyəti bütövlükdə qənaətbəxş sayıla bilər.

## *MƏNBƏLƏR VƏ ƏDƏBIYYAT:*

1.Краткий обзор деятельности Съезда бакинских нефтепромышленников по народному образованию за время с 1897 по 1912 г. Баку, 1913.
2.Мурадалиева Э.Кровь земная – нефть Азербайджана и история. Баку, 2005.
3.Отчет о деятельности Совета, XVIII-ому очередному съезду нефтепромышленников. Баку, 1903.
4.Отчет о деятельности Совета съезда, XX-ому очередному съезду нефтепромышленников. Баку, 1905.
5.Отчет о деятельности Совета съезда, XXII-ому очередному съезду нефтепромышленников. Отдел II. Хозяйственная деятельность Совета. Баку, 1906.

6.Отчет о деятельности Совета съезда, XXIII-ому очередному съезду нефтепромышленников. Отдел II. Хозяйственная деятельность Совета. Баку, 1906.
7.Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi (XII əsrdən 1920-ci ilə qədər). Bakı, 1984.
8.Таирзаде Н. К истории народного образования в промыслово – заводском районе Баку в конце XIX – начале XX века. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, №1. Bakı, Elm Nəşriyyatı.
9.Труды XVIII-го очередного съезда нефтепромышленников в городе Баку (с 5-го по 22-е декабря 1903 года). Том II. Баку, 1904.
10.Труды XX-го очередного съезда нефтепромышленников в городе Баку (с 31-го января по 13-е февраля 1905 года). Том II. Баку, 1905.

**ПОЛАД ХАЛИЛОВ**
***Младший научный сотрудник Института Истории имени А.А.Бакыханова НАНА***

## ПРО КУЛЬТУРНО-ПРОСВЕТИТЕЛЬСКУЮ ДЕЯТЕЛЬНОСТЬ «СЪЕЗДА БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ» В 1900-1905-Х ГОДАХ

Статья посвящена деятельности «Съезда бакинских нефтепромышленников» в области культуры и просвещения в 1900-1905 гг. Исследование показало, что культурно-просветительская деятельность этой организации в тот период не ограничивалась только школами, но уже организовывались также народные библиотеки-читальни, народные дома, устраивались народные развлечения и другие культурные мероприятия.

В статье анализируются факторы, влиявшие на национальный и социальный состав учеников школ организации, в том числе и на получение азербайджанцами образования в них.

Помимо этого в статье упоминается о средствах выделенных съездом для развития культурно-просветительской сферы, а так же информация о ежегодно растущем числе учащихся и их национальном происхождении что вызывает интерес у широкого круга читателей.

Из общего контекста статьи становится ясно что деятельность «Съезда Бакинских нефтепромышленников» в культурно-просветительской области служила интересам нефтепромышленной буржуазии и преследовала цель русификации общества. В статье ясно указывается, что результатом этой политики стали трудности азербайджанских школьников в получении образования.

Проведенные исследования показывают что деятельность «Съезда Бакинских нефтепромышленников» в 1900-1905 г. г., когда культурно- просветительская жизнь в стране находилась в тяжелых условиях, можно в целом оценить как положительную и служившую хоть и частичному, но решению проблем.

**POLAD KHALILOV**
**Junior research worker of ANAS**
**History Institute named after A.A.Bakikhanov**

## ABOUT CULTURAL-ENLIGHTENER ACTIVITY OF " BAKU OIL INDUSTRY WORKERS CONGRESS " IN THE 1900-1905 YEARS

The article is about the activity done in 1900-1905 in cultural-education sphere of "Baku Oil industrials Congress". The done research shows that organization's activity in cultural-education sphere doesn't limit only at school, besides nation-library readers, nation entertainments, nation houses and other religious measures were organized.

There analyzed the factors that influenced to congress pupils national and social, and azerbaijanians education at that schools in the article.

Besides, there some factors that attracted the readers attention, for example, the means that congress gave in cultural-educational sphere, increase of pupils numbers who educated at schools, description of the pupils' national structure.

From the article it is easy to see that, "Baku Oil Industrials Congress" activity in cultural-educational sphere, served to oil- industry bourgeoisie's monopolist high sections' interest and had the purpose to realize the Russify politics. As a result of that politics the problems of azeri pupils in gaining the education has found its reverse side.

The done researches show that, "Baku Oil industrials Congress" activity has done many plus work in developing the hard condition that occurred in 1900-1905 in cultural-educational sphere.

***Rəyçilər: t.e.n. N.Ə.Məmmədova, t.e.d. A.Məmmədov.***

***Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu "Azərbaycanın yeni tarixi" şöbəsinin 14 noyabr 2009-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №11)***